**AZƏRBAYCAN RESPUBLİKASI ELM və TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

**Filologiya fakültəsi**

**Azərbaycan ədəbiyyatı tarixi**
**kafedrasında magistratura səviyyəsində tədris edilən fənlər üzrə**

# P R O Q R A M L A R

**Bakı-2022**

**Tərtib etdi:** **prof. Sənan Məmmədəli oğlu İbrahimov**

**Rəyçi:** **prof. Vaqif Soltan oğlu Verdiyev**

**Proqram Filologiya fakültəsinin Elmi Şurasının 19 dekabr 2022-ci il tarixli iclasında (protokol № 05) təsdiq edilmişdir.**

**Magistratura pilləsində tədris edilən**
**“Azərbaycan ədəbiyyatşünaslığının tarixi və metodologiyası ” fənni üzrə**

# P R O Q R A M

Ədəbiyyatşünaslıq ədəbi düşüncənin yaranması ilə bağlı bir elmdir. Bu elmin yaranmasına səbəb tarix boyu yaradılan bədii əsərlərdir. Bədii əsərlər isə ədəbi düşüncənin poetik ifadəsidir. Bu mənada poetik düşüncənin inkişaf dinamikasını dərindən öyrənmək çox vacibdir. Əlimizdə olan ilkin qaynaqlar ədəbi düşüncənin hansı əsərlərdən qaynaqlandığını göstərir. İlkin ədəbi abidə kimi “Vassanta-çataka” nəzərdən keçirilir. Həmin abidənin “xeyirxahlıq” ideyası, mayak kimi sonrakı dövr ədəbi düşüncəyə istiqamət vermiş və yazılan əsərlər bu ideya üstündə köklənmişdir. Həmin ideya üstündə “Avesta” kimi möhtəşəm abidə yaranıb “xeyir düşüncə, xeyir söz, xeyir əməl” fikrini dini ehkama çevirdi. Sonrakı dövr ədəbi abidələr insan həyatının müxtəlif aspektlərini bədii boyalarla bəzədi. “Tomiris”, “Astiaq” əfsanələri, “Zareran dastanı”, “Kitabi-Dədə Qorqud” tarixin qəhrəmanlıq salnaməsini, Mani kitabları tarixin fəlsəfi düşüncəsini, sonra meydana gələn İncil, Quran kimi kitablar dini düşüncəni, XI əsrdən etibarən lirik-epik əsərlər qabaqcıl poetik zövqü və estetik düşüncəni formalaşdırdı. Ədəbi düşüncənin inkişaf dinamikası bu mənzərə ilə gözlərimiz qarşısında canlanır.

Ədəbiyyata aid ilk nəzəri fikirləri Aristotel özünün “Poetika” və “Ritorika ” kitablarında dedi. Sonra bu fikir bütün islam dünyasına yayılıb bəlağət elmini yaratdı. Ədəbiyyatşünaslıq bir elm kimi inkişaf edib yeni sahələr yaratdı. Avropa metodologiyasında ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqid. Şərq metodologiyasında Bəlağət və onun tərkib hissələri olan fəsahət, bəyan, məani, bədii kimi sahələr. sonralar kəlam elmi, hədis elmi. Daha sonralar bu sahələrə mətnşünaslıq, mənbəşünaslıq, ədəb elmi, əxlaq elmi, etika, estetika və s.

*Azərbaycan ədəbiyyatşünaslığının tarixi* orta əsrlərdən - Xətib Təbrizinin tənqidi görüşləri, klassiklərimizin söz və sənət barəsindəki fikirləri, Nəsrəddin Tusinin “Meyarül-əşar” əsəri və qafiyə elmi barədə fikirləri, Vəhid Təbrizinin “Cəmi- müxtəsər” əsəri ilə başlayıb, XIX əsrdə M. F. Axundovun ədəbi fikirləri, S.Ə. Şirvaninin, F. B. Köçərlinin, Sovet dövründəki ədəbiyyatşünas alimlərimizin tədqiqatları ilə davam etməkdədir.

XX əsrin əvvəllərində ədəbiyyatşünaslığımızın ciddi problemlərindən biri *“Azərbaycan ədəbiyyatı tarixi” məsələsi* olub. Bu barədə dövrün görkəmli alimləri: Firudin bəy Köçərli, İsmayıl Hikmət, Salman Mümtaz, H. Zeynallı, A. Şaiq, A. Musaxanlı, S. Əfəndizadə, Bəkir Çobanzazə, Mustafa Quliye, Əmin Abid, M. Ələkbərli öz sözlərini demiş. Sonra M. Arif, N. Şəmsizadə, İsa Həbibbəyli kimi alimlər elmin aktual məsələlərinin həllinə girişmiş və ədəbiyyatda dövrləşmə problemini həll etmişlər.

Ədəbiyyatşünaslıq elminin bir sahəsi olan *mətnşünaslığın* da ciddi problemləri var. Qədim və orta əsr ədəbi abidələrin əlyazmalarının əldə edilməsi, onların tənqidi mətnin hazırlanması, müasir əlifbaya çevirib çap edilməsi mühüm məsələ kimi həmişə ədəbiyyatşünaslıq qarşısında durmuşdu. Mətnşünaslığın predmeti

təkcə əlyazmalar deyil, həm də tarixlərin çevrilməsi, xətt növləri, mətn növləri, nəşr variantlarıdır.

Dünya ədəbiyyatşünaslığında həmişə ciddi problemlərdən biri də *üslubiyyət problemidir*. Bu məsələdə Avropa və Şərq alimlərinin fikirləri üst-üstə düşmür. Şərqdə üslubiyyət bəlağət elmi üstündə qurulmuş və onun tərkib hissələri olan fəsahət, bəyan, məani və bədii kateqoriyaları ilə əsərlərin poetik çalarları şərh edilir. Əsərlərdə fəsahətə ziyan gətirən faktlar göstərilir, bəyan elmində bədii təsvir və ifadə vasitələri, məani elmində müəllifin hikməti, fəsahətdə işlətdiyi poetiki vəznlər və bədii elmində isə poetik fiqurlar təfsilatı ilə şərh edilir. Avropa metodologiyasında isə bunlar yoxdur və bədii əsərlərin səciyyəvi xüsusiyyətləri ədəbi cərəyanlar, ədəbi məktəblər kontekstində şərh edilir.

*Ədəbi janrlar və şəkillər* Şərq poetikasında çox zəngindir və bunlar dərindən təhlil edilir. Elə ədəbi janrlar var ki, yalnız divan ədəbiyyatında işlənir və Avropa ədəbiyyatında işlənmir. Elə janrlar da var ki, yalnız Avropa və dünya ədəbiyyatında işlənir və Şərq divan ədəbiyyatında onlara təsadüf olunmur. Şifahi və yazılı ədəbiyyatda işlənən ədəbi növlər, janrlar və şəkillər bir-birindən fərqlənir. onların həm terminologiyası, həm də mahiyyəti fərqlidir. Şərq ədəbiyyatşünaslığında əsərlərin məzmunundan çıxış edərək onlara adlar verilir: tarixnamə, elmnamə, eşqnamə, məhəbbətnamə, saqinamə, bahariyyə və s. Bunlar ədəbiyyat nəzəriyyəsində şeir şəkilləri adlanır. Qəsidə, qəzəl, rübai, bayatı, qoşma, gəraylı, nağıl, dastan, roman, povest, hekayə və s. kimi terminlər isə sırf janrların adlarıdır. Həmin şeir şəkilləri hər hansı bir janrda təzahür edə bilər.

Ədəbiyyatşünaslığımızın problemlərindən biri də *ədəbi tənqiddir*. "Tənqid" sözünün etnologiyası isə "nəqd" sözündəndir. Mənası "yaxşını seçmək, dirhəmlərin xalis qızıl və ya qəlb olmalarını tanımağa deyilir və qüsurları görmək mənasını da ifadə edir. Bu gün müsəlman arasında məcazi olaraq sözün yaxşı və pis tərəflərini tanımaq üçün işlənməkdədir (Cavad Heyət). Bəzən bu söz yunanca "kritika" kimi işlədilir. Yunan dilində isə mənası "hökm etməkdir". Bizim işlətdiyimiz *ədəbi tənqid* də bu mənalara söykənir, yəni bədii əsərlərin qiymətləndirilməsi mənasında işlənir. Bu mənada dünya alimləri tənqidin metodologiyasını belə səciyyələndirirlər: sosial tənqid (daha çox məişət məzmunlu əsərlərə xasdır); psixoloji tənqid (sentimentalizmin nümayəndələri buna üstünlük verirdi); oxucu marağını nəzərə alan impressionist tənqid; dini aspektdən tənqid (bu əsas etibarilə təsəvvüf ədəbiyyatına xasdır); dilçilik baxımından tənqid (dil sadəliyi Azərbaycan aşıq poeziyasında üstünlük təşkil edir); mətnşünaslıq baxımından tənqid (əlyazmaların qüsurları və xətt yazıları ilə əlaqədardır); poetika baxımından tənqid (poetik fiqurlardan məharətlə istifadədir); siyasi aspektdən tənqid (ədəbiyyatda olan siyasətnamələr); əxlaqi baxımdan tənqid (nəsihətnamələr üçün xasdır); tarixi kontekstdə tənqid (tarixnamələr, şahnamələr üçün xasdır); ideoloji aspektdən tənqid; etik baxımdan, estetik baxımdan, mövzu baxımdan tənqid; pedaqoji tənqid (didaktik əsərlərə xasdır); fəlsəfi tənqid(fəlsəfi məzmunlu əsərlərə xasdır); müqayisəli tənqid; ədəbi məktəb və ədəbi cərəyanlar baxımından tənqid; tərcümə üzrə tənqid; və s.

*ədəbiyyat*

1. *İbrahimov. Azərbaycan ədəbiyyatşünaslığının tarixi, metodologiyası və problemləri. Bakı, BDU nəşriyyatı, 2012*
2. *Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq: ensiklopedik lüğət. Bakı, 1998*
3. *İbrahimov S. Ədəbiyyatşünaslıq problemləri. Bakı, Füyuzat, 2022.*

**“Azərbaycan ədəbiyyatı ümumşərq kontekstində ” fənni üzrə**
**PROQRAM**
**magistratura II kurs**

Qədim dövr Azərbaycan ədəbiyyatı Vahid Şərq ədəbiyyatı kontekstində. Avesta və başqa abidələrin Vahid Şərq ədəbiyyatında əksi. Poetik düşüncənin ilkin nümunələri kimi, həmin abidələrin Azərbaycan ədəbiyyatında izləri və dünya sivilizasiyasına verdikləri ideyalar.

VII-IX əsrlərdə yaşamış və ərəb dilində yazmış Azərbaycan şairləri, onların ədəbi əlaqələri. Ərəbdilli Azərbaycan ədəbiyyatı Vahid Şərq ədəbiyyatı kontekstində. Ərəb dilində yazan azərbaycanlı şairlər və onların barəsində Şərq mənbələrində olan məlumatlar. “Oğuznamələr” haqqında məlumat. Xilafət dövründəki Vahid Şərq ədəbiyyatı.

X əsr Vahid Şərq ədəbiyyatı və həmin dövr abidələri klassiklərimiz üçün ideya qaynağı kimi. Azərbaycan ədəbiyyatından Firdovsi “Şahnamə”sinin süjet və motivləri. Səaləbinin “Yetimətül-dəhr” təskirəsi və orada olan Azərbaycanlı şairləri Marağayi Müğəlləsi və Bərakəveyn Zəncani haqqında məlumatlar. X əsərdə yaşamış Şərq şairləri və onların poeziyasının Azərbaycan ədəbiyyatına təsiri (Baba Tahir Üryan, Qisai Mərvi, Buxari, Əbu Mənsur Qəzali, Mərufi Bəlxi, Rəbiə, Əbülxeyir, Dəqiqi, Xosrəvani, Rudəki və s. )

XI əsrin birinci yarısı Vahid Şərq ədəbiyyatı kontekstində Azərbaycan ədəbiyyatı. Həmin dövrdə yaşamış Şərq ədəbiyyatı nümayəndələrinin Azərbaycan şairləri ilə olan ədəbi əlaqələri: Nasir Xosrov və Qətran Təbrizi, əsərlərində Azərbaycan motivləri (Fəxrəddin Gürgani “Vis və Ramin”, Əsədi Tusi “Gərşaspnamə”), Qafqaz Albaniyası ədəbiyyatına məxsus nümunələr (İsanlın “Mehr və Vəfa poeması), ərəbdilli Azərbaycan ədəbiyyatı. Xətib və dünya ədəbiyyatşünaslığı. Xətibin ərəb şairlərinin əsərlərinə yazdığı şərhlər. Tahir Xoylunun “Tənvin” kitabı. Ədəbiyyatımıza təsir edən Şərq şairləri: Fərruxi Sistani, Mənuçöri Damğani, Sənai Qəznəvi, Rəşidi Sмərqəndi, Nizami Əruzi, Zahiri Səmərqəndi, Məhəmməd Qəzali, Nizamülmülk, Keykavus, Naser Xosrov, Ömər Xəyyam, Xəreqani, Ənsari, Əl Qəzali və s. XI əsr Səlcuqlar sarayının ədəbi mühiti və Azərbaycan ədəbiyyatı. Həmin dövrdə yaşamış Şərq ədəbiyyatı nümayəndələrinin Azərbaycan şairləri ilə olan ədəbi əlaqələri, əsərlərində Azərbaycan motivləri, Azərbaycan şairlərinin əsərlərinə yazdıqları nəzirələr və Azərbaycan şairlərinin onların əsərlərinə yazdıqları nəzirələr. Azərbaycan şairlərinin onlar barəsində qeydləri.

XII əsr Azərbaycan ədəbiyyatı Vahid Şərq ədəbiyyatı kontekstində. Həmin dövrdə yaşamış Şərq ədəbiyyatı nümayəndələri: Ədib Əhməd, Xəbbaz Razi, İmadi, Əbivərdi, Fəryabi, Ədib Sabir Termezi və onun oğlu Cövhəri (“Məhsəti və Əmir Əhməd” povesti), Fəridəddin Əttar, Rəşidəddin Vətvat, Kəmaləddin İsmaili, Mərvəsi (“Bəxtiyarnamə”) və s. Məhsəti və Şərq, Xaqani və Şərq, Nizami və Şərq, Əbu Bəkr İbn Xosrov əl-Ustad və onun “Munisnamə”si. Şirvan ədəbi mühiti. Atabəylər sarayının şairləri: Əsirəddin Əxsikəti, Əşəri, Mücirəddin Beyləqani və s. Filosof şairləri: Miyanəci və Şihabəddin Sührəvərdi.

XIII əsr Vahid Şərq ədəbiyyatı kontekstində Azərbaycan ədəbiyyatı. Nəsrəddin Tusi və Şərq, Fəzlullah Rəşidədinin “Tarix-ət-təvarix” kitabı, Şəms Təbrizi, Şeyx Səfiəddin Ərdəbili, Zülfüqar Şirvani, Hümam Təbrizi, “Dastani-Əhməd Hərami” Vahid Şərq ədəbiyyatı kontekstində. İbn Xəldun qeydləri, Suli Fəqih və onun “Yusif və Züleyxa” poeması Vahid Şərq ədəbiyyatı kontekstində, Məhəmməd Oufi və Azərbaycan ədəbiyyatı. Şəms Qeys Razi, Nəxşəbi, Keykavus Keyxosrov Cəlaləddin Rumi və Azərbaycan ədəbiyyatı. Sədi Şirazi və Azərbaycan ədəbiyyatı. Əmir Xosrov Dəhləvi və Azərbaycan ədəbiyyatı. Azərbaycan ədəbiyyatına ciddi təsir edən Şərq klassikləri: Əfzələddin Kaşani, Əl Razi, Cuyəni, İbn Bibi, Kaşani, Qəzvini, Müyəddin Cuyəni və s.

XIV əsr Vahid Şərq ədəbiyyatı kontekstində Azərbaycan ədəbiyyatı. Övhədi Marağayi və Şərq. Əsaar Təbrizi yaradıcılığı Şərq ədəbiyyatı kontekstində. Yusif Məddah və onun “Vərqa və Gülşah” poeması, Səlman Savəci, Arif Ərdəbili, Nəimi, Nəsimi yaradıcıklığı. Xacu Kirmani və Azərbaycan ədəbiyyatı. Übeyd Zakani və Vahid Şərq ədəbiyyatı. Əmad Fəqih yaradıcılığı. Hafiz Şirazi və Vahid Şərq ədəbiyyatı. Zia Nəxşəbi, yaradıcılığı və s. XIV əsrdə yaşamış Şərq ədəbiyyatı nümayəndələrinin Azərbaycan şairləri ilə olan ədəbi əlaqələri, əsərlərində Azərbaycan motivləri, Azərbaycan şairlərinin əsərlərinə yazdıqları nəzirələr və Azərbaycan şairlərinin onların əsərlərinə yazdıqları nəzirələr. Azərbaycan şairlərinin onlar barəsində qeydləri. Həmin dövrdə yaşamış Şərq ədəbiyyatı nümayəndələrinin Azərbaycan şairləri ilə olan ədəbi əlaqələri, əsərlərində Azərbaycan motivləri, Azərbaycan şairlərinin əsərlərinə yazdıqları nəzirələr və Azərbaycan şairlərinin onların əsərlərinə yazdıqları nəzirələr. Azərbaycan şairlərinin onlar barəsində qeydləri.

XV əsrdə yaşamış Azərbaycan şairləri: Hamidi, Xəlili, Süruri, Həbibi, Cahan Şah, Şah Qasim Ənvar, Əşrəf Marağayi, Əhmədi Təbrizi, Seyid Yəhya, filosof Nemətullah Naxcşıvani və s. Vahid Şərq ədəbiyyatı kontekstində Azərbaycan ədəbiyyatı. Cami və Azərbaycan ədəbiyyatı. Nəvai və Azərbaycan ədəbiyyatı. Həmin dövrdə yaşamış Şərq ədəbiyyatı nümayəndələrinin Azərbaycan şairləri ilə olan ədəbi əlaqələri, əsərlərində Azərbaycan motivləri, Azərbaycan şairlərinin əsərlərinə yazdıqları nəzirələr və Azərbaycan şairlərinin onlar barəsində qeydləri. Onların Azərbaycan şairləri haqqında qeydləri.

XVI əsr Vahid Şərq ədəbiyyatı kontekstində Azərbaycan ədəbiyyatı. Xətai və Şərq ədəbiyyatı. Füzuli və Şərq ədəbiyyatı. Həmin dövrdə yaşamış Şərq ədəbiyyatı nümayəndələrinin Azərbaycan şairləri ilə olan ədəbi əlaqələri, əsərlərində Azərbaycan motivləri. Vəhşi Bafti, Kəmaləddin Kaşani, Kəlim Həmədani poeziyası və Azərbaycan ədəbiyyatı.

XVII əsr Azərbaycan və Şərq ədəbi mühiti: Məsihi, Saib Təbrizi, Qövsi Təbrizi, Qalib Təbrizi, Təsir Təbrizi, Herani, Fədai Təbrizi. Vahid Şərq ədəbiyyatı kontekstində Azərbaycan ədəbiyyatı. Həmin dövrdə yaşamış Şərq ədəbiyyatı nümayəndələrinin Azərbaycan şairləri ilə olan ədəbi əlaqələri, əsərlərində Azərbaycan motivləri, Azərbaycan şairlərinin əsərlərinə yazdıqları nəzirələr və Azərbaycan şairlərinin onların əsərlərinə yazdıqları nəzirələr. Azərbaycan şairlərinin onlar barəsində qeydləri.

XVIII əsr Vahid Şərq ədəbiyyatı kontekstində Azərbaycan ədəbiyyatı: Şakir Şirvani, Məsh Şirvani, Şəkili Nəbi, Şikəstə Şirin, Nişat Şirvani, Vidai, Vaqif, Möhsün Nəsiri, Məhcur Şirvani, Beqdeli, Hatif İsfahani və s. . Həmin dövrdə yaşamış Şərq ədəbiyyatı nümayəndələri: Bistami, Yəzdi, Sani, İsfəhani, Fəreqani və s. həmin şairlərin ədəbi əlaqələri və əsərlərində Azərbaycan mövzusu.

XIX əsr Vahid Şərq ədəbiyyatı kontekstində Azərbaycan ədəbiyyatı: Şakir, Zakir, Vazeh, Bakıxanov, Qurtqaşınlı, Qasir. Kazım bəy, Mirzə Fətəli, Aşıq Ələsgər, Nakam, S. Ə. Şirvani, Vəzirov, Sabir, Mirzağa Təbrizi, Möcüz, Qaracadaği, Xalxali, Marağayi, Talıbov və s. Şərq şairlərindən Türkiyə ədəbi mühiti: Şinasi, Ziya Paşa, Namiq Kamal, Tofiq Fikrət, Ərsoy, Ziya, Ömər, Rəşad Nuri və s. Orta Asiya ədəbi mühiti: Abay, Eyni, İqbal, Əfqani və s. İran ədəbi mühiti: Kaşani, Cəndi, Qaani, Fərəhani, Nişapuri, Qəzvini və s. Onların yaradıcılığında Vahid şərq ədəbiyyatı ənənələri və Azərbaycan.

Vahid Şərq ədəbiyyatında "Azərbaycan səbki". Azərbaycan səbkinin xarakterik xüsusiyyətləri: azərbaycançılığın ifadəsi, Azərbaycan coğrafiyasına, tarixinə dair qeydləri və s. XX əsr Vahid şərq ədəbi kontekstində Mirzə Cəlil, Sabir, Nərimanov, Hacıbəyov, Haqverdiyev, Rudiyyə, Dehxuda, C. Cabbarlı, H. Cavid, Nazim Hikmət, Əziz Nesin, Xəlili, Qarizadə, Eşqi, Bahar, Sadıq Hidayət, Lahuti, Bozorg Ələvi, Camalzadə, Ehsan Təbəri və s. Onların yaradıcılığında Şərq poetik ənənələri. Mətbuatın ədəbiyyata təsiri.

*ədəbiyyat*

1. *İbrahimov S. Azərbaycan ədəbiyyatı ümumşərq kontekstində. Bakı, 2006*

2. *İbrahimov S. Qədim və orta əsrlər İran, Əfqanıstan və Tacikistan ədəbiyyatı. Bakı, 2015*

3. *İbrahimov S. Vahid Şərq ədəbi prosesi. Bakı, Füyuzat, 2020*

**“Əruz vəzni” fənni üzrə**
**PROQRAM**
**magistratura I kurs**

Əkrəm Cəfər vaxtilə Əhməd tərəfindən yaradılmış əruzun nəzəri əsaslarını şərh etmiş, qəlibləri, rüknləri, vətədi, səbəbi, fasiləni və başqa nəzəri məsələləri tam şəkildə şərh etmişdir. “Əruz” sözünün kökündən yaranan sözlər müasir dilimizdə var. Bunlar - *ərzində, ərz etmək, ərizə, əırazi və .*

Əruzun musiqisindən məşhur bəstəkarımız Üzeyir Hacıbəyov da bəhs etmişdir: Əruzda yazılmış qəzəlin vəzni dəsgahın musiqisi üçün dəxi vəzn məqamını tutur” – demişdir.

Şer vəznindən bəhs etməzdən əvvəl onu təşkil edən səslərdən, səsləri yazıda ifadə edən ən kiçik vahid hərflərdən bəhs etmək lazımdır. İkinci vahid heca adlanır: güclü hecalar , zəif hecalar . Sözlər və birləşmələr. Onların xüsusiyyəti.

Şerdə əsas vahid misra və ya beyt olması uzun müddət mübahisəyə səbəb olmuşdur və son nəticə bu olmuşdur ki, ərəb şerində şer vahidi beyt, türk şerində isə misra hesab edilsin.

Misranın bölgüləri, beytin bölgüsü: sədr , əruz, ibtida, zərb, həşv. Azərbaycan əruzunda həmin terminlərin əvəzi: *başaq, ayaq, ortaq*

Vəznlərin mahiyyəti, təfilələr və onun növləri. Qəliblər.

Rüknlər**:** yüngül səbəb, ağır səbəb, yanaşı vətəd, aralı vətəd, kiçik fasilə, böyük fasilə.

Qəliblər**,** onların növləri; əsas və törəmə qəliblər.

Əruzda dairələr**:** *müctəlibə, müştəbihə, müttəfiqə, müntəziə dairəsi.*

Dairəyə daxil olanları isə əruzşünaslar bəhr adlandırır.

Bəhrlər isə bir-birlərindən öz ahənglərinə, heca ölçülərinə və hecaların qısa və uzun, qapalı və açıq olması və düzümü ilə fərqlənirlər. Xəlil ibn Əhməd həmin ahəngi ölçmək üçün فعل (fe”l) sözünün müxtəlif formalarından istifadə etmişdir. Azərbaycan və başqa xalqların əruzşünasları həmin qəlibləri öz dillərindəki formula ilə əvəz etmişlər.

Azərbaycan əruzunda işlənən bəhrlər bunlardır:

***Həcəz****: MəfAİlün, məfAİlün, məfAİlün, məfAİlün.*
***Rəməl*** *: fAilAtün, fAilAtün, fAilAtün, fAilAt.*
***Rəcəz*** *: Müstəf”ilün, müstəf”ilün, müstəf”ilün, müstəf”ilün.*
***Mütəqarib****: fə”Ulün, fə”Ulün, fə”Ulün, fə”Ulün.*
***Müzare:*** *məf”ulü, fAilatü, məfAİlü, fAilün.*
***Müctəs:*** *məfA”ilün, fə”ilAtün, məfA”ilün, fə”ilün.*
***Münsərih****: müftə”ilün, fA”ilün, müftə”ilün, fA”ilün.*
***Xəfif:****: Fə”ilalAtün, məfA”ilün, fə”ilün.*
***Səri****: Müftə”ilün, müftə”ilün, fA”ilün.*
***Mütədarik:*** *fA”ilün, fə”il, fA”ilün, fə”il.*
***Kamil****: mütəfA”ilün,mütəfA”ilün,mütəfA”ilün,mütəfA”ilün.*
***Müqtəzəb****: fA”ilAtü məf”Ulün fA”ilAtü məf”Ulün*

Yalnız ərəb əruzunda işlənən bəhrlər: *təvil, bəsit, mədid və vafir.*

Yalnız fars əruzunda işlənən bəhrlər: *cədid, qərib və müşakil.*

İmalə və zihafın mənası. Əruz vəznində yazan klassiklərimiz. Müasir ədəbiyyatımızda əruz vəznində yazan şairlərimiz.

Orta əsrlərdə yaşamış əruzşünasların elmi fikirləri bu elmin inkişafında xüsusi rol oynamışdır. Onlardan – *Xəlil ibn Əhməd "Kitab əl-ayin" əsəri ilə, Xətib Təbrizi "Kitab əl-kafi fil-əruz və əl qəfavi" əsəri ilə, Şəms Qeys Razi "Əl-mözəm fi məayir əş"ar əl-əcəm" ilkə, Nəsrəddin Tusi "Me"yarül-əş"ar" ilə, Vəhid Təbrizi "Cəmi-müxtəsər" kitabı ilə, Ə. Cami "Əruz" kitabı ilə, Əlişir Nəvai "Mizanül-övzan" ilə* məşhurdur. Müasir əruzşünaslardan isə Əkrəm Cəfərin, Əli Fəhminin, Şirvani Ədillinin, Nazim Verdiyevin, Tərlan Quliyevin tədqiqatları diqqəti cəlb edir.

Əruzşünaslığı müasir dövrdə bu aspektdə inkişaf edir: əruz və qrammatik qaydalar: *ikiqat hecalar, ilişmələr, dilçilikdə uyuşma və ahəng qanunu, hərflərin musiqisi.*

Əruzun həm də şifahi xalq ədəbiyyatımızdakı ifadəsi diqqəti cəlb edir və bu mənada *qoşmaların ahəngi, meyxanalarda əruz, mərsiyələrdə əruz, sinəzənlərdəki əruz ritmi və s.*

***Ədəbiyyat***


1. *Əkrəm Cəfər. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı, elm, 1977.*
2. *Rəfili M. Ədəbiyyat nəzəriyyəsinə giriş. Bakı, 1958.*
3. *Mikayılov Ş. Ədəbiyyat nəzəriyyəsi. Bakı, Maarif. 1981*
4. *Ramiz Faseh. Əruz vəznin tədrisi. Bakı, Çiraq, 2003*
5. *İbrahimov S. Əruz vəzni. Bakı, Füyuzat, 2020*
6. *Ədəbiyyatşünaslığın əsasları. Bakı, 1963.*
7. *Məmmədzadə B. Zirvədən zirvəyə. Bakı, NBM, 2011.*

**“Azərbaycan epik poeziyası (orta əsrlər)” fənni üzrə**
**PROQRAM**
**magistratura II kurs**

Azərbaycan epik şerinin inkişaf tarixi qədim tarixi qaynaqlara söykənir. VII əsr abidəsi olan “Kitabi-Dədə Qorqud” eposundakı poetik nümunələr, tarixi qədim olan aşıq dastanlarındakı şeir nümunələri sübut edir ki, Azərbaycan epik şerinin tarixi çox qədimdir. X əsrdən etibarən Şərq ədəbiyyatında dastan yazmaq ənənəsi gücləndi və Firdovsinin “Şahnamə”si təkcə farsdilli poeziyada deyil, həm də türkdilli poeziyada epik şerin inkişafına təkan verdi.

Anadilli Azərbaycan ədəbiyyatında epik şerin ilk nümunəsini XI əsr şairimiz İsanın yaradıcılığında görürük. Şair özünün “Mehr və Vəfa” poeması ilə XI əsr Azərbaycan epik şerinin nadir nümunəsini yaratmışdır. Poemada təsəvvüf ədəbiyyatına məxsus gözəllik fəlsəfəsi, onun ilahi keyfiyyəti təsvir olunur.

XII əsr Azərbaycan epik şerinin görkəmli nümayəndələri sırasına dahi Nizami Gəncəvi və Xaqani Şirvani aiddir. Xaqanin səyahətnamə üslubunda yazdığı “Töhvətül-İraqeyn” əsəri farsdilli Azərbaycan ədəbiyyatında epik şerimizin ilk nümunəsi sayılır. Nizami Gəncəvinin xəmsəsi XII əsr Azərbaycan epik şerinin nadir nümunəsi olmaqla həmin dövr Azərbaycan intibah ədəbiyyatının zirvəsidir. “Sirlər xəzinəsi” məsnəvisində qoyulan əxlaqi problemlər, “Xosrov və Şirin” poemasındakı eşq fəlsəfəsi, “Leyli və Məcnun” poemasındakı eşqin faciəsi problemi, “Yeddi gözəl ” poemasındakı hökmdar obrazı, saray əyləncələr, “İsgəndərnamə ” epopeyasındakı qəhrəmanlıq missiyası bütün dünya ədəbiyyatında ədəbi düşüncənin nadir nümunəsi hesab edilir.

XIII əsrdən etibarən Azərbaycan epik şerində mövzu müxtəlifliyinə rast gəlirik. Anadilli poeziyamızda “Dastani – Əhməd Hərami” poemasının mövzusu Dədə Qorqud boylarından qaynaqlanırdı, Suli Fəqihin, Əlinin, Mustafa Zəririn, Xətai Təbrizinin, Füzulinin, Azərin qələmə aldığı “Yusif və Züleyxa” mövzusu vahid Şərq ədəbiyyatından, Arif Ərdəbilinin “Fərhadnamə”si Azərbaycan və İran tarixindən, Nizami poeziyasından qaynaqlanırdı.

Əssar Təbrizinin “Mehr və Müştəri” poeması mövzu baxımından XII əsr yazıçımız Əbubəkr ibn Xosrov əl-Ustadın nəsrindən qaynaqlansa da, məzmun etibarilə dostluq mövzusunda yazılmış ən gözəl poema hesab edilir. Şəbüstərinin fəlsəfi poeziyası epik şerin məzmununu daha da dərinləşdirdi.

XIV əsrdən etibarən anadilli ədəbiyyatımızda yaradılan epik nümunələr də mövzu və ideya baxımından diqqəti cəlb edir. Yusif Məddahın və Məsihinin “Vərqa və Gülşa ”, Həqiri Təbrizi “Leyli və Məcnun” poemaları qədin ərəb folklorundan qaynaqlansa da milli keyfiyyətlər, yeni fəlsəfi məzmun kəsb edirdi.

XIV əsrin sonu XV əsrin əvvəllərində Camali Təbrizinin yaratdığı “Xəmsə”si poeziyamızın dinamik inkişafından xəbər verir. Onun qələmə aldığı beş poema; “Töhfətül-əbrar”, “Mehr və Nigar”, “Məhzun və Məhbub”, “Həft ourəng” və “İsgəndərnamə” poeması epik poeziyamızın nadir nümunələridir.

XV əsr şairi Əhmədi Təbrizi kimi şairlərin həm tərcümə, həm də yaradıcılıq fəaliyyəti olub. O, Fəridəddin Əttarın “Əsrarnamə” poemasını dilimizə tərcümə

etmişdir. Eləcə də Şərq ədəbiyyatında məşhur olan “Yusif və Züleyxa” mövzusunda poema yazmışdır.

XV əsrin başqa bir şairi Əşrəf Marağayi (..- 1460) öz xəmsəsi ilə epik poeziyamızda görkəmli yer tutmuşdur. Şair Marağada anadan olmuş və sonra Təbrizdə Şirazda, Bağdada, Heratda yaşayıb yaratmış və ömrünün sonunda Təbrizə qayıdaraq, orada vəfat etmişdir. Nizamiyə nəzirə yazdığı əsərlər: “Mənhəcül-əbrar”(Müqəddəslər yolu) “Sirlər xəzinəsi”nə nəzirə olaraq yazılmışdır. “Riyazül-aşiqin” (Aşiqlər bağı)(1432) Nizaminin “Xosrov və Şirin” poemasına nəzirə olaraq yazılmış. “Eşqnamə” poeması Nizaminin “Leyli və Məcnun” poemasına nəzirə olaraq yazılmış. “Həft övrəng” (Yeddi çələng) (1440) əsərini şair Herat şəhərində yazmış və Nizaminin “Yeddi gözəl” poemasına nəzirədir. “Zəfərnamə” poemasını şair 1447-ci il Heratda Teymurun kiçik oğlu Şahruxa (1405-1447) həsr etmiş və Nizaminin “İsgəndərnamə” poemasına nəzirə olaraq yazmışdır.

Füzuli yaradıcılığında epik şerin başqa nümunələrinə də rast gəlirik: “Bəhgü badə”, “Meyvələrin söhbəti” kimi poemaları alleqorik şerimizin nadir nümunəsi hesab edilir.

XVI əsrdən etibarən Azərbaycan ədəbiyyatında Saib Təbrizi, Əmani yaradıcılığında da epik şerin nadir nümunələrini görürük. Məhcur Şirvaninin “Qisseyi-Şirzad”, Hamidin “Seyfəlmülük”, Fədainin “Bəxtiyarnamə”, Ağa Məsih Şirvanin “Şahnamə”si, Şakir Şirvanin “Əhvali-Şirvan”, Xalxalinin “Sələbnamə” kimi poemaları anadilli poeziyamızda epik şerin nadir nümunələri hesab edilir. Həmin poemalarda təkcə şifahi xalq ədəbiyyatına məxsus süjet və epizodlar öz əksini tapmır, həm də dövrün siyasi abu-həvası öz əksini tapırdı. Sadıq bəy Əfşarın “Fəthnamə” poeması Firdovsinin “Şahnamə”si üslubunda yazılmışdır.

### *ədəbiyyat*


1. *Azərbaycan ədəbiyyatı tarixi. 4 cilddə. Bakı, Elm, 2004, 2007, 2009, 2011.*
2. *Azadə R. Azərbaycan epik şeirinin inkişaf yolları (XII-XVII əsrlər). Bakı, Elm, 1977,*
3. *Səfərli Ə. XVII – XIII əsrlər Azərbaycan epik şeiri. Bakı, 1983*
4. *Mirzəyev A. Azərbaycan epik şeirinin təşəkkül dövrü. Bakı: Elm və təhsil, 2016*
5. *Məhərrəmov T. Əşrəf Marağayi. Bakı, Elm, 2000*
6. *Nağısoylu M. Əhmədi Təbrizi və “Əsrarnamə” tərcüməsi. Bakı, Elm və təhsil, 2012*
7. *Kazımov. M. Camali Təbrizinin poetik irsi (rusca). Bakı, Elm, 1998.*
8. *İbrahimov S. Orta əsrlər Azərbaycan romantik ədəbiyyatı. Bakı, 2016*

**“Orta əsrlər ədəbi prosesi” fənninin**
**PROQRAMI**
**magistratura II kurs.**

Ədəbi proses haqqında ümumi məlumat. Ədəbi proses və ədəbi mühit haqqında. XVI əsrədək ədəbi yaradıcılıq prosesinin sırf Vahid Şərq ədəbiyyatı kontekstində inkişafı. Səfəvilərdən sonra Azərbaycan ədəbi yaradıcılıq prosesinin inkişaf dinamikası haqqında qısa məlumat. Qədim dövr ədəbi yaradıcılıq prosesi. Ədəbi düşüncəyə daxil olub üzün müddət bədii yaradıcılıqdan çıxmayan ideyalar və mövzular. “Vasanta-çataka”( “Sudaşen əfsanəsi”), “Zareran dastanı, “Avesta”, Mani mətnləri, “Kitabi-Dədə Qorqud” və başqa “Oğuznamə”lər

VII-X əsrlər ədəbi yaradıcılıq prosesi və prosesin məşhur nümayəndələri. Xilafət dövründə ədəbiyyat: İsmayıl ibn Yəsar, Musa Şəhəvat, Əl-Cərir, Əl-Əxtəl, Rəbiə, Əbu Nuvəs, Ətəhiyyə, Məərri, Dinəvərdi İsfəhani, Mərvi və s. farsdilli ədəbiyyatda: Rudəki, Dəqiqi, Firdovsi, Şəhidi Bəlxi, Zərrəi, Şükükr Bəlxi, Xosrəvani, Mərufi Bəlxi, Qisai Mərvi, Baba Tahir Üryan, Əbülxeyir, Həllac Mənsur və s. Onların yaradıcılığının başlıca xüsusiyyəti və sonrakı ədəbi prosesə təsiri.

**XI əsr ədəbi yaradıcılıq prosesi**. Bu dövr ədəbi mühitinin məşhur nümayəndələri: Xətib Təbrizi, Mümkan Təbrizi, Mənsur Təbrizi, Xalid Təbrizi, Xəttat Nizami Təbrizi, Xətibi Urməvi, Nəsr Təbrizi, İskafi Zəncani, Qətran Təbrizi, Ömər Gənci, Məsud ibn Namdar, Tahir Xoylu. Ədəbi prosesdə aktiv iştirak edən başqa şairlər: Baxərzi, İsfəhani Toğrayi, Hamid İsfahani, Əlbirudi, Sükkari Mərvi, Mənsuri Səmərqəndi, Utaridi, Bəhruzə, Ləbibi, Əscədi Mərvi, Zinəti Əyyuqi, Bəhram Sərəxçi, Qəzayiri Razi, Mərvəzi, Runi, Bihəqqi, Ələvi, Həcəviri, Ünsüri Bəlxi, Qəzairi, Fərruxi Sistani, Damğani, Muxtari Qəzvini, Məsud Səəd Səlman, Məlikə, Cəbəli Qorcestani, Sənai Qəzvini, Şətrənci Səmərqəndi, Lami Cürcani, Əməğ buxari, Rəşidi Səmərqəndi, Suzəni Səmərqəndi, Mənciq Termezi, Nizami Əruzi, Zəhiri Səmərqəndi, Əzrəqi, Nişapuri Müizzi, Nizamülmülk, Xələf Nişapuri, İbn Bəlxi, Keykavus, Naser Xosrov, Əsədi Tusi, Fəxrəddin Gürgani, Ömər Xəyyam Xəreqani, Ənsari, Əl Qəzali və s. Onların yaradıcılığı və ədəbiyyata gətirdiyi mövzular, ideyalar.

**XII əsr ədəbi yaradıcılıq prosesi**. Azərbaycan ədəbi mühitinin məşhur nümayəndələri: Baba Kuhi Bakuvi, Məhsəti, Xaqani, Mücirəddin, Əbül- Üla Gəncəvi, Əbu Bəkr ibn Xosrov əl-Ustad, Nizami Gəncəvi, Qivami Mütərrizi, Fələki, İzzəddin Şirvani, Eynəlqüzat Miyanəci, Şihabəddin Sührədəvrdi və s. Vahid Şərqü ədəbiyyatının nümayəndələri: Ədib Əhməd, Fəridəddin Əttar, Xəbbaz Razi, Cəmaləddin İsfəhani, İmadi, Əbivərdi, Zəhiri Faryabi, Cövhəri, Rəşidəddin Vətvat, Sabir Termezi, Kəmaləddin İsmayıl, Mərvəzi, Bəlxi Həmidələddin, Bədi Cuyəni, Bağdadi, Münəvvəri, Vəraveyni, Əsirəddin Əxsikəti və s. onların ədəbi prosesə gətirdiyi mövzular və ideyalar.

**XIII əsr ədəbi yaradıcılıq prosesi**. XIII əsr ədəbi yaradıcılıq prosesinin məşhurları: Nəsrəddin Tusi, Ərdəbili, Əssar Təbrizi, Hümam Təbrizi, İzzəddin Həsənoğlu, Zülfüqar Şirvani, “Dastani-Əhmnəd Hərami”, Nasir Bakuyi, Suli Fəqih, Əlinin “Qisseyi-Yusif”, Siracəddin Urməvi, Yunus Əmrə, Səfiəddin

Urməvi, Həmədani, Fəzlullah Rəşidəddin, Rəvəndi, Zəfər, Kirmani, Oufi, Şəms Qeys, Ziyaəddin, Siraci Səqzi, Razi, Əvmani, Rumi, Qanei, Şəms Təbrizi, Qanei Tusi, Zərdüşt Bəhram, Məcid Həmgər, Əraqi, Sədi Şirazi, Hamid Kirmani, Məhəmməd Oufi Buxari, Ziyəddin Nəxşəbi, Qəməri İsfəhani, Keykavus Keyxosrov, Cəlaləddin Rumi, Əmir Xosrov Dəhləvi, Seyf Fərqani, Siracəddin Qumri, Sultan Vələd, Nizzari Qohestani,Əmir Hüseyni, Simnani, Həsən Dələvi, Əfzələddin Kaşani, Əlsədi əl-Razi, Əli Cuyəni, Nəsəfi, Kazeruni Şirazi, Məhəmməd Kaşani, Mustofi Qəzvni, Əli Kaşani, Muyəddin Cuyəni və s. Onların ədəbi prosesdə rolu və yeri. Yazdıqlari ədəbi-bədii-elmi əsərlərin əhəmiyyəti.

**XIV əsr yaradıcılıq prosesi**. XIV əsr ədəbi prosesinin məşhur şairləri: Marağalı Övhədi, Şəbüstəri, Əssar Təbrizi, Yusif Məddah, Arif Ərdəbili, Nəimi, Nəsimi, Bürhanəddin, Şəms Təbrizi, Cəmaləddin Təbrizi, Səlman Savəci, Nəsuh Təbrizi, Fəzlullah Rəşidəddin, Qəzvini, Bənakəti, Cuyəni, Mustofi Qəzvini, Bəder Çaçi, Əmin Bəlyani, Xacu Kirmani, Sayın Hərəvi, İbn Yəmin, Übeyd Zəkani, Əmad Fəqih, Cahan Xatun, Kəmal Xocəndi, Əflaki, Mahmud bən Osman, Ziya Nəxşəbi, Yəzdi, Şəms Münşi, Zərkub Şirazi, Multani və s. Onların yaradıcılığı və ədəbi prosesdə rolu.

**XV əsr ədəbi yaradıcılıq prosesi**. XV əsrdə yaşamış şairlər: Əşrəf Marağayi, Yəhya Şirvani, Hidayət, Hamidui, Xəlili, Süruri, Bəsiri, Tüfeyli, Hafiz, Şah Qasım Ənvar, Bədr Şirvani, Həqiqi, Həbibi, Kişvəri, Xəlifə Təbrizi, Xətai Təbrizi, Əhmədi Təbrizi, Bayrək Quşçuoğlu, Seyid Yəhya Bakuvi, Bərdəi, Nemətullah Naxçıvani, Cami, Əlişir Nəvai və s. Onların ədəbi prosesə gətirdikləri mövzular, poetik ənənələr.

**XVI əsr ədəbi yaradıcılıq prosesi**. Səfəvilər dövlətinin yaranması və həmin dövr ədəbi mühitin görkəmli nümayəndələri: Xətai, Füzuli, Əmani, Sadiq bəy Əfşar və s. Vahid Şərq ədəbi prosesinin nümayəndələri: Vəhşi Bafti, Möhtəşəm Kaşani, Kəlim Həmədani və s. Osmanlı sarayı ilə bağlı olan şairlər. onların Vahid Şərq ədəbi prosesində rolu.

**XVII əsr ədəbi yaradıcılıq prosesi**. XVII əsr ədəbi yaradıcılıq prosesinin məşhur nümayəndələri: Məshi, Saib Təbrizi, Qövsi Təbrizi, Təsir Təbrizi, Tərzi əfşar, Heyrani, Qurbani, Fədai Təbrizi və s. Eləcə də Qalib Dəhləvi kimi vahid Şərq ədəbi mühitinin nümayəndələri. Onların ədəbi irsi və ədəbi prosesdə rolu. Səbki-hindi və səbki-Azərbaycani. Həmin səbklərin mahiyyəti.

**XVIII əsr ədəbi yaradıcılıq prosesi**. XVIII əsr ədəbi prosesinin məşhur nümayəndələri: Şakir şirvani, Məsih Şirvani, Şəkili Nəbi, Şikəstə Şirin, Baba şirvani, Arif Şirvani, Nişat Şirvani, Məhcur Şirvani, Hamidi, Vidadi, Vaqif, Məhəmməd, Möhsin Nəsiri, Hamidi, Məhcur Şirvani və s. Vahid Şərq ədəbi prosesinə aid olanlar: Fərruxi Bistami, Qəvvasi Yəzdi, Mirzə Sani, Mirzə Nasir İsfəhani, Müştaq İasfəhani, Hatif İsfəhani, Lütvəli bəy Azər, Məcmər İsfəıhani, Məhdimqulu Fəraqi və s. Onların yaradıcılığının xarakterik xüsusiyyətləri, ədəbi yaradıcılıq prosesində rolları.

**XIX-XX əsrlər ədəbi proses**. XIX əsrin ikinci yarısında mövcud ədəbi mühitin məşhur nümayəndələri: Baba bəy Şakir, Qasım bəy Zakir, Heyran xanım, Mirzə Şəfi Vaeh, Abbasqulu ağa Bakıxanov, Mirzə Kazımbəy, Mirzə İsmayıl Qasir, Seyid Mir Həmzə Nigari, İsmayıl bəy Qutqaşınlı, Mirzə Fətəli Axundov,

Aşıq Ələsgər, İsmayıl bəy Nakam, Xurşudbanu Natəvan, Seyid Əzim Şirvani, Aleksey Osipoviç Çernyayevski, Məhəmmədağa Şaxtaxtlı, Məhəmməd ağı Sidqi, Nəcəf bəy Vəzirov, Səfərəli bəy Vəlibəyov, Mirzə Ələkbər Sabir, Firudin bəy Köçərli,

Rəşid bəy Əfəndiyev, Sultan Məcid Qənizadə (1866-1937), Cəlil Məmmədquluzadə (1869-1932), Nəriman Nərimanov (1870-1924), Əbdürrəhim bəy Haqverdiyev (18770-1933)

Məmməd Səid Ordubadi (1872-1950), Abbas Səhhət (1874-1918), Süleyman Sani Axundov (1875-1939), Əli Nəzmi (1878-1946), Məhəmməd Hadi (1879-1920), Əliqulu Qəmgüsar (1880-1919), Fərhad Ağazadə (1880-1931), İbrahim bəy Musabəyov (1881-1942), Abdulla Şaiq (1881-1959), Hüseyn Cavid Rasizadə (1882-1941), Abdulla bəy Divanbəyoğlu ((1883-1936),

Əlabbas Münzib (1883-1937), Məhəmməd Əmin Rəsulzadə (1884-1955), Üzeyir Hacıbəyov,

Yusif Vəzir Çəmənzəminli, Bəkir Çobanzadə, Cəfər Cabbarlı (1899-1934).

Aşıq poeziyasının nümayəndələri: Aşıq Pəri, Ağabəyim Ağadır.(..-1832), Əbdürrəhman ağa Dilbaz Şair, Mustafa ağa Arif, Kazım ağa Salik (1781-1842), Padarlı Abdulla, Məlikbanlı Qurban, Məhəmməd bəy Cavanşir Aşiq (1776 - 1861), Mücrim Kərim Vardani, Varxiyanlı Aşıq Məhəmməd.

Cənubi Azərbaycanda ədəbi prosesin nümayəndələri: Mirzə Kazım Qazi Əsgərzadə Mətlə (1833-1892), Əşrəf Gilani və Sərraf (1853-1907), Məhəmməd Hidəci (1853-1928), Mirzə Ağa Təbrizi, Əbdürrəhman Talıbovun (1834-1911), Zeynalabdin Marağayi (1837-1910), Mirzə Həsən Rüşdiyyə (1851-1944), Bayraməli Abbaszadə Hambal (1869-1926), Seyid Əbülqasim Nəbati, Mehdi bəy Şəqaqi, Zikri Ərdəbili, Mirzə Mehdi Şükuhi (1829-1896), Məhəmmədbağır Xalqxali (1829-1901), Məhəmməd Xəlifə Aciz, Əndəlib Qaracadaği, Mirzə Əli Möcüz (1873-1934), İrəc Mirzə (1874-1926), Mirzə Ələkbər xan Dehxudadır (1879-1955), Məmmədəli Səfvət , Pərvin Yusif qızı Etisami (1906-1941), Məhəmməd Hüseyn Şəhriyar (1906-1988), Xazini. Türkiyə ədəbi mühiti: İbrahim Şinası (1824-1871), Əbdülhəmid Ziya Paşa (1829-1880), Namiq Kamal (1840-1888), Əbdülhəq Hamid Tarxan (1852-1937), Tofiq Fikrət (1867-1915), Mehmet Akif Ərsoy (1873-1936), Ziya Göyalp (1876-1924), Ömər Seyfəddin (1884-1920), Yəhya Kamal Bayatlı (1884-1958), Rəşad Nuri Güntəkin (1889-1956), Nazim Hikmət (1902-1963), Əziz Nesin (1915-1995).

Orta Asiya, Əfqanıstan və Pakistan ədəbi mühiti: Abay Kunanbayev (1845-1904), Sədrəddin Eyni (1878-1954), Məhəmməd İqbal (1877-1938), Seyid Cəmaləddin Əfqani (1838-1897), Xəlilullah Xəlili (1903-1987), Ziya Qarizadə (1921-2008).

İran ədəbi mühiti: Mirzə Əbülqasim Fərahani Qaimməqam (1778-1835), Fətəli xan Səba Kaşani (1775-1835) , Mirzə Əbdülvahab Nişat İsfahani (1778-1828), Mirzə Şəfi Vüsal Şirazi (1783-1846) , Yəğmayi Cəndi (1782-1859), Mirzə Həbib Qaani (1808-1854), Mirzə Məhəmmədəli Süruş İsfahani (1813-1868), Mirzə Həbib İsfahani (1835-1893), Mirzə Melkum xan Nazimüldövlə (1831-1908), Mirzə Məhəmməd Əmiri Ədibəlməmalik Fərəhani (1860-1919)

Əbdül Cavad Ədib Nişapuri, Seyid Əşrəfəddin Hüseyni Qəzvini (1870-1934), Məhəmmədəli Foruği Zəkaülmülk (1875-1942), Əbülqasım Arif Qəzvini (1882-1934), Seyid Məhəmmədrza Mirzadə Eşqi (1893-1924), Məhəmməd Tağı Məliküşşüarə Bahar (1886-1851), Əbülqasım Lahuti (1887-1957), Məhəmməd Fərruxi Yəzdi (1889-1939), Səid Nəfisi (1895-1966), Əli İsfəndiyari Nima Yuşic (1897-1960), Sadıq Hidayət (1903-1951), Bozorg Ələvi (1904-1997)
Seyid Kərim Əmiri Firuzkuhi (1909-1984), Məhəmməd Hüseyn Rəhi Müəyyeri (1911-1968)
Mehdi Həmidi Şirazi (1914-1986), Məcid Yektai, Məhəmədrza Rəhmani Mehrdad Usta (1929-1991), Məhəmmədəli Əfraştə, Ehsan Təbəri, Naser Ameli, Qəhrəman Yəzdanbəxş, Əli Əsgər Moinyanın, Pərviz Xətibi, Ələsgər Mühacir, İbrahim Gülüstan, Nüyura Məhəmməd, Əhməd Mahmud, Əmir Gülarə, Mahmud Kiyanuş, Hüseynqulu Mustanı, Bəhram Sadeki, Müdərrisi
Camalzadə, Əli Məhəmməd Əfqani, Zeynalabdin Rahnəma, Cəlal Ale-Əhməd, Sadıq Çubək,
Bəhazin Mahmud Etimadzadə.

Həmin dör mətbuatı ədəbi prosesin bir qolu kimi.

***Ədəbiyyat***

*1. Azərbaycan ədəbiyyat tarixi. II, III, IV cildlər*
*2. İbrahimov S. Vahid Şərq ədəbi prosesi. Bakı, 2020*
*3. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1981*
*4. Mir Cəlal və F. Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı. 1983*
*5. İbrahimov S. Klassik Azərbaycan ədəbiyyatı. Bakı, 2009*
*6. Babayev Y. Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 2014*
*7. Səfərli Ə. və Yusifov X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı, 1999.*